# DİNŞÜNASLIQ

*R.Kərimova. Zeynəddin əl-Amili və onun fiqh kitabına ümumi baxış // Əlyazmalar yanmır. 2021, №2(13), s.198-204.*

UOT: 09; 297

**Rəxşəndə Kərimova**
*AMEA M.Füzuli adına Əlyazmalar institutu,*
*Bakı ş., İstiqlaliyyət küç., 26*
*e-mail: ms.rxsnd@mail.ru*

## ZEYNƏDDİN ƏL-AMİLİ VƏ ONUN FİQH KİTABINA ÜMUMİ BAXIŞ

**Xülasə**

*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan orta əsrlərə məxsus olan görkəmli alim və katiblər tərəfindən yazılmış yazılı abidələr məzmun baxımdan çoxşaxəli və müxtəlifdir. AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda İslam aləminin məşhur alim və mütəfəkkirlərinin İlahiyyat elmlərinin müxtəlif sahələrinə aid yazılmış əsərlərinin əlyazma nüsxələri qorunub saxlanılır.*

***Açar sözlər:*** *İslam, Quran, fiqh, Azərbaycan əlyazmaları, Zeynəddin əl-Amili*

**Giriş**

Dünyanın dörd tərəfinə yayılmış, müxtəlif ölkələrin kitabxanalarında və şəxsi kolleksiyalarında qorunan və maddi-mənəvi sərvət hesab olunan əlyazmalar özündə təkcə hər hansı elmi və ya bədii məzmunu deyil, eyni zamanda, yazıldığı və hətta üzünün köçürüldüyü dövrün ictimai-siyasi, iqtisadi, mədəni durumunu əks etdirən məlumatları da daşıyan dəyərli nümunələrdir. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu da orta əsr elmlərinin bütün sahələrini əhatə edən-tibb və astronomiya, riyaziyyat və minerologiya, poetika və fəlsəfə, teologiya və hüquqşünaslıq, qrammatika, tarix və coğrafiya, bədii nəsr və poeziyaya aid Azərbaycan, türk, ərəb, fars və başqa dillərdə zəngin və nadir əlyazma kolleksiyasına malikdir [4, s. 15]. Əlyazmalar İnstitutu dünyanın ən zəngin Şərq əlyazmaları və arxiv materialları toplanmış mərkəzlərdən biridir. Onun kolleksiyasında ümumi sayı 60 mindən artıq olan müxtəlif səciyyəli materiallar saxlanılır. Bunlar 12 minə yaxın əlyazma kitabını (hər kitabda orta hesabla 3-4 əsər yazıldığını nəzərə alsaq, 40 mindən yuxarı əlyazma əsərini), 1000-ə yaxın tarixi-arxeoqrafik sənədi, XIX əsrin ikinci yarısı, XX əsrin birinci

yarısı 30-dan artıq Azərbaycan mədəniyyət xadiminin 20 minə qədər saxlama vahidini əhatə edən şəxsi arxivlərini, 10 mindən artıq litoqrafik (daşbasma) və əski çap kitablarını, təxminən 2700 köhnə dövrü mətbuat materialını, foto və kserosurətləri, mikrofilmləri, həmçinin əlyazmaşünaslığın müxtəlif sahələrinə dair müasir kitabları əhatə edir [1, s. 5-6].

Əlyazmalar İnstitutunda İlahiyyatın bütün sahələrindən bəhs edən müxtəlif alimlərin yazılı elmi irsi qorunmaqdadır. Bunlardan biri İslam dinində fiqh sahəsinə aid yazılmış Zeynəddin ibn əl-Həsən ibn Əli əl-Amilinin"روضة البهية فى شرح اللمعة الدمشقية" "Raudət əl-bəhiyyə fi şərh əl-ləmat əd-dəməşqiyyə" əsəridir. Bu şərh Cəmaləddin əbu Abdulla ibn Məkki ibn Əhməd əl-Amili əl-Cəzzini əş-Şeyx əl-Əvvəl əl-Uləma əs-Səninin (ö.h.784 / m.1382) "Əl-ləmat əd-dəməşqiyyə" əsərinə yazılmışdır.

Zeynəddin əl-Amili h. 13 şəvval 911/ m. 9 mart 1506-cı ildə Livanın cənubundakı Cəbə şəhərində anadan olmuşdur. Haqsız yerə qətlə yetirildiyi üçün "Şəhid Səni" kimi və atası kimi İbni əl-Huccə kimi tanınır. İlk təhsilini atasından alan Amili h.925/m.1519-cu ildə atasının ölümündən sonra o dövrdə mühüm elm mərkəzi hesab olunan Livanın cənub-şərqində yerləşən Meysulcələbə getmiş və burada səkkiz il ərzində müxtəlif müəllimlərdən dərs almışdır. Daha sonra isə Livanın Zahlə şəhərinin şimal-şərqindəki Kərəkinahda öyrəndiklərini mükəmməlləşdirmə fürsətini tapmışdır. Qaynatası Abdulali əl-Misəmi, Həsən əl-Arəci, Şəmsəddin Məhəmməd ibn Məkki əd-Dəməşqi, Hüseyn əl-Curcani, Şəhabəddin ibnu əl-Hənbəli, Nəsirəddin əl-Məlkani, Məhəmməd ibn Nəxxas, Əbdülhəmid əs-Sənhuri və Məhəmməd Əbdülqədir əş-Şafii kimi alimlərədən dərs almışdır. Hicri 934/m.1528-ci ildə Cəbəyə qayıdaraq burada fətva verməklə yanaşı müəllimlik və vaizlik vəzifələrini də davam etdirmişdir. İki dəfə getdiyi Dəməşqdə bir il qaldıqdan sonra vətəninə qayıtmışdır. Hicri 942/m.1535-ci ildə sünni alimləri ilə fikir mübadiləsi aparmaq və elmini artırmaq üçün Misirdə təxminən bir il yarım qaldıqdan sonra Şəhabəddin Əhməd ibn Həmzə ər-Rəmlidən təsdiqini almışdır. Həcc ziyarətini yerinə yetirmək üçün Məkkə getmiş sonra Cəbəya qayıtmışdır. İki il sonra İraqda yerləşən imamlara məxsus müqəddəs yerləri ziyarət etmiş və h. 948/m.1541-42-ci ildə Qüdsə köçmüşdür. İstanbuldan aldığı dəvətə görə h.17 rəbbiüləvvəl 952/m.29 may 1545-ci ildə ora çatmiş və üç il yarım orada məskunlaşmışdır. Ora səfər etməyinin əsl səbəbi Balabəkdəki bir mədrəsədə müəllim heyətində vəzifə alması idi. Belə vəzifəyə təyin üçün məhəllə qazisindən Anadolu məmuruna icazə üçün müraciət edilməli və sözü gedən adama izin verilməli idi. Lakin Zeynəddin bu cür hərəkət etmədi, 10 fərqli elmdən bəhs edən risaləsini təqdim etdi. Anadolu məmuru Məhəmməd əl-Qutbəddin Məhəmməd onun elm səviyyəsindən çox təsirləndi, Dəməşq və ya Hələbdə yerləşən mədrəsələrin birində müəllimlik edə biləcəyini bildirdi. Lakin Amili, Balabəkdəki Nuriyyə mədrəsəsində işə qəbul olmağı üstün tutdu. Sənədlərini hazırladıqdan sonra ikinci dəfə İraqa gedərək müqəddəs torpaqları ziyarət etdi və h. 953 səfər ayının ortalarında/ m. Aprel ayının ortalarında 1546-cı ildə yeni vəzifəsinə başladı. Bu mədrəsədə İslan elmləri ilə əlaqəli digər elmlərlə yanaşı İmamiyyə fiqhi daxil olmaqla beş məzhəb fiqhini tədris etməyə başladı. Başda kürəkəni Nurəddin Əli ibn Hüseyn əl-Amili əl-Cizzini olmaqla Hur əl-Amilinin atasının babası Məhəmməd ibn Hüseyn əl-Hur əl-Amili, İbnu əl-Udi adı ilə tanınan Məhəmməd ibn Əli əl-Amili, Bahaəddin əl-Amilinin atası Hüseyn ibn Əbdüssəməd əl-Amili kimi şəxsiyyətlərin yetişməsində böyük rol oynamışdır. Son üç tələbəsi İstanbul və Qahirə səyahətlərində onu müşaiyət etmişdir.

Zeynəddin h.955/m.1548-ci ildə Cəbəyə qayıtdı və həyatının son illərini burada keçirərək yerli rəqiblərindən daima narahatlıq ilə yaşadı. Özünü müctəhid olduğunu iddia edən bidəətçi bir şəxs yolunda meydana çıxan və İstanbula qədər çatan şikayətlərlə qarşılaşdı. Dövrün qazısı Məruf, Rüstəm Paşaya bidəətçi olduğu və ya aktiv Şiə təbliğatı apardığı səbəbi

ilə şikayət etdikdən sonra onun İstanbula aparılması qərarı verildi. Hicri 955-ci ilin əvvəllərində/m. Oktyabr-noyabr 1557-ci ildə Məkkəyə gedən zaman həbs olunaraq qırx gün həbsdə qaldıqdan sonra İstanbula aparılır, lakin padşah və vəzirin hüzuruna çıxarılmadan qətlə yetirilir. Başqa mənbəyə görə isə Anadoluya çatanda mühafizəçi tərəfindən qisas səbəbi ilə öldürülmüşdür. Bu hadisədən sonra Şiə məzhəbində "Şəhidi Əvvəl" kimi tanınan Məhəmməd ibni Məkki əl-Amilidən 180 il sonra o, "Şəhid Səni" kimi tanındı. Ölüm tarixi ilə bağlı fərqli qeydlər var, h.965/m.1558 və ya h.966/m.1559 olaraq verilməkdədir [3, s. 440-441; 6 s. 137]. Başqa görüşə görə Rüstəm Paşa alimin başını kəsdikdən sonra Qanuni Sultan Süleymana aparmış, Sultan isə əmrinə itaət edilmədiyinə və onu sarayına gətilmədiyinə görə onu edam etdirmişdir. Zeynəddin əl-Amili şəhid edildiyi gecə ətraf kəndlər dəniz sahilində bir nurun göyə yüksəldiyini gördülər. Maraqla yanına yaxınlaşanda başsız bir bədənlə rastlaşırlar. Kim olduğunu araşdırmadan onu sahilə yaxın bir yerdə dəfn edərək kiçik bir türbə inşa edirlər [9].

Mənbələrdə Zeynəddin əl-Amilinin ölümündən qabaq yuxuda ikinci şəhid olmasını görməsi rəvayət olunur: "Şeyx Bəhainin atası Şeyx Hüseyn ibn Əli Əbdüssəməd Harisi belə rəvayət etmişdir: Bir gün Şəhid Saninin yanına getdim. Dərin düşüncəyə dalmışdır. Nəyi düşünürsən soruşanda belə cavab verdi: "Qardaşım zənn edirəm ki, mən ikinci şəhid olacam və əlavə etdi; "Yuxuda Seyid Murtazanı gördüm. Bir ziyafət süfrəsi hazırlamış və Şiə alimləri də ətrafına yığışmış, bir yerdə yeyirdilər. Mən də onlara qoşuldum. Seyyid Murtaza məni görüncə ayağa qalxdı və xoş gəldin deyərək Şəhid Əvvəlin yanında oturmağı söylədi" [9].

Zeynəddin əl-Amili dövrünün məşhur alim sülaləsindən biri idi: atası Şeyx Nurəddin Əli böyük alimlərdəndir, Sahibi Məalım kimi tanınan Əbu Mənsur Cəmaləddin Həsən Şəhid Saninin oğludur, Sahibi Mədarik adı ilə tanınan Seyyid Məhəmməd ibn Əli əl-Amili Şəhid Saninin qızından olan nəvəsidir, Şeyx Əli və Şeyx Zeynəddin, Məalım kitabının sahibinin oğlu və Zeynəddin əl-Amilinin nəvələridir [10].

Şəhid Saninin yüksək biliyə sahib olması onun tək fiqh sahəsində elə yetmişdən artıq əsərin yazılmasına səbəb olmuşdur. Alim olmaqla yanaşı şair olan əl-Amilinin məşhur əsərləri bunlardır: "Təfsir əş-Şəhid əs-Səni" əsəri özündə bəsmələnib (Bismillahir-rahmənir-rahim) geniş izahı verildikdən sonra Tövbə surəsinin mühacir, ənsar və onlara tabe olanların tərifinə dair 100-cü ayənin təfsirini ehtiva edir. "Əd-Dirayə fi elm muştalah əl-hədis", "əl-Bidayə di elmi əd-dirayə"- Şiə məzhəbinin önəmli hədis üsulu kitablarından olub müəllifi tərəfindən "ər-Riayə fi elm əd-dirayə" adı ilə şərh etmişdir. "Şərh əl-Bidayə fi elm ər-Rivayə", "Həqaiq əl-iman", Raudət əl-bəhiyyə fi şərh əl-ləmat əd-dəməşqiyyə" – Şəhid Əvvəlin fiqhlə bağlı əsərinə yazılan şərh olub, onun da üzərinə bir çox şərh və haşiyələr yazılmışdır. "Məsalik əl-əfham fi tənqih şərai əl-islam"- Muhəqqiq əl-Hilliyə məxsus əsərin şərhidir. Hüseyn ibn İbrahim əl-Qəzvini əsəri mətni ilə birlikdə "Məraciu əl-əhkam" adi ilə şərh etmişdir. "Əsrar əs-salət", "ət-Tənbihət əl-aliyyə" – Namaz qılarkən görülməsi vacib olan qəlbi əməllərdən bəhs edən bir əsərdir. "Kəşf ər-reybə fi əhkam əl-geyb"-İmamiyyə şiəsində qeybolma ilə əlaqəli hökmlərə dair bəzi əks fikirlərin rədd ediməsindən bəhs edir. "Munyət əl-murid fi ədəb əl-mufid və əl-mustəfid"-təhsil-təlimdə müəllim-şagird münasibətləri ilə bağlı iri həcmli bir əsərdir. "Musəkkin əl-fuad ində fiqd əl-əhibba va əl-ovlad" (Övlad və yaxınların itkisi zamanı qəlbə təskinlik verən) əsərini əsasən övlad və yaxın adamların ölümü zamanı müsibət görmüş insanlara təskinlik vermək üçün yazmışdır. Bu cəhətdən kitabda gətirdiyi hədisləri və bəhsləri də övlad itkisinə aid etmişdir. Əsərin yazılmasının başlıca səbəbi Şəhid Səninin keçdiyi çətin həyat tərzi və sağlığında övladlarının vəfatı (yalnız bir oğlu sağ qalır və dövrünün məşhur alimlərindən biri olub) olmuşdur. Bu əsərə yüzə yaxın şərh yazılmışdır. Rövşən Abdullaoğlu tərəfindən Azərbaycan dilinə tərcümə edilmiş və 2012-ci oldə "Bəla və səbir" adı ilə nəşr edilmişdir [11].

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Zeynəddin əl-Amilinin "Raudət əl-bəhiyyə fi şərh əl-ləmat əd-dəməşqiyyə" əsərinin əlyazma nüsxələri qorunub saxlanılır. Əlyazmalar İnstitutunda 2 hissədən ibarət olan bu əsər həm bütöv şəkildə bir cilddə, həm də ayrı-ayrı cildlənmiş şəkildə mühafizə olunur. Bu əsərlər Orta əsrlərdə Azərbaycan məscid və mədrəsələrində tədris vəsaiti kimi istifadə olunmuşdur. Əsər şiə məzhəbinə aid müxtəlif şəri məsələləri əhatə edir. 51 kitabdan ibarət olan bu şərh iki cilddən ibarətdir. Birinci cildə 27 kitab daxildir. Onlardan "Kitab təharət", "Kitab salət", "Kitab zəkat", "Kitab xums", "Kitab hacc", "Kitab nəzr", "Kitab mutacir" və s. qeyd etmək olar. İkinci cild isə 24 kitabı əhatə edir. Onlardan "Kitab icarə", "Kitab vəkalə", "Kitab nikah", "Kitab talaq" və s. göstərmək olar.

S-224/6177 şifrəsi altında qorunub saxlanılan bu əlyazma hər iki hissəni əhatə edir. Şərh Avropa istehsalı olan sarımtıl rəngli, yarı ahərlənmiş və filiqranli vərəqə qara mürəkkəblə nəsx xətti ilə köçürülüb. Əsərdə bəzi söz və ifadələr qırmızı mürəkkəblə yazılıb. Həmçinin bəzi söz və ifadələrin üzərindən qırmızı və qara mürəkkəblə xətt çəkilib. Haşiyələrdə və sətirlərin arasında qeydlər var. Şərq üsulu ilə səhifələnən bu əlyazmanın cildi kartona keçirilmiş açıq qəhvəyi rəngli dəridir. Şərh katib əl-Əbdülqasir tərəfindən h.1268/m.1852-ci ildə köçürülüb. Həcmi 324 vərəq, ölçüsü isə 35x29 sm-dir.

S-732/9685 şifrəsi altında qorunub saxlanılan əsər Avropa istehsalı olan sarımtıl rəngli, nazik, yarı ahərlənmiş və filiqranlı vərəqə qara mürəkkəblə nəsx xətti ilə köçürülüb. Mətndə bəzi söz və ifadələr qırmızı mürəkkəblə yazılıb. Haşiyələrdə müxtəlif istiqamətlərə yazılmış qeyd və izahlar var. Binonimlər və orta əsr mətnşünaslığında tətbiq olunan şərti işarələr qırmızı və qara mürəkkəblə verilib. Əsərin sonunda kolofonun içində müəllifin adı (Zeynəddin əl-Amili) və əsərin yazılma tarixi (h.957/m.1550) qeyd olunub. Cildi kartona keçirilmiş açıq qəhvəyi rəngli dəridir. Üzəri bir böyük və iki balaca basma medalyonla bəzədilmişdir. Əlyazmanın həcmi 312 vərəq, ölçüsü isə 26x16 sm-dir.

D-413/10390 şifrəsi altında qorunub saxlanılan bu əsər Avropa istehsalı olan həm göyümtül və həm də sarımtıl rəngli, yarı ahərlənmiş, filiqranlı vərəqə qara mürəkkəblə nəstəliq xətti ilə köçürülüb. Sətirlərin arasında və haşiyələrdə qara mürəkkəblə yazılmış qeyd və izahlar var. Bəzi söz və ifadələrin üzərindən qara mürəkkəblə xətt çəkilib. Əsərin əvvəlində kitabın fehristi verilmişdir. Burada əsərə daxil olan 51 kitabın adı qara mürəkkəblə yazılıb. Əlyazmanın arasında Həzrət Abbasa yönəldilmiş ərizə var. Şərq üsulu ilə səhifələnən əlyazmanın cildi kartona keçirilmiş tünd qəhvəyi rəngli dəridir. Həcmi 204 vərəq, ölçüsü isə 32,5x20,5 sm-dir.

Göstərilənlərdən başqa M-370/30763, S-423/21145 və D-618/10595 şifrələrində də əsərin digər nüsxələri qorunub saxlanılır.

Əlyazmalar İnstitutunda "Raudət əl-bəhiyyə fi şərh əl-ləmat əd-dəməşqiyyə" əsərinin birinci cildinin əlyazma nüsxələri tam hissəyə və ikinci cildə nisbətən daha çoxdur. D-96/3737 şifrəsi altında qorunub saxlanılan əsərin birinci hissəsi Avropa istehsalı olan sarımtıl rəngli, yarı ahərlənmiş və filiqranlı vərəqə qara mürəkkəblə nəsx xətti ilə köçürülüb. Bəzi söz və ifadələr qırmızı mürəkkəblə yazılıb. Həmçinin bəzi sözlərin üzərindən qırmızı mürəkkəblə xətt çəkilib. Mətnin haşiyələrində və sətirlərin arasında müxtəlif istiqamətlərə qara və qırmızı mürəkkəblə yazılmış qeyd və izahlar var. Şərq üsulu ilə səhifələnən əsər kolofonla bitir. Əlyazmanın cildi kartona keçirilmiş tünd qəhvəyi rəngli dəridir. Üzərinə xətlərlə bəzək vurulub. Əsərin katibi Həsən bin Məhəmməd, həcmi 304 vərəq və ölçüsü 32x20,5 sm-dir.

D-149/11466 şifrəsi altında saxlanılan əsər Avropa istehsalı olan sarımtıl rəngli, nazik vərəqə qara mürəkkəblə şagird nəsxi ilə köçürülüb. Bəzi sözlər o cümlədən, əsərin adı və başlıqlar qırmızı mürəkkəblə yazılıb. Həmçinin bəzi söz və ifadələrin üzərindən qırmızı mürəkkəblə xətt çəkilib. Mətnin haşiyələrində həm müxtəlif istiqamətlərə yazılmış qeyd və

izahlar, həm də qırmızı mürəkkəblə yazılmış binonimlər var. Əlyazmanın son səhifəsində kitabın fehristi verilmiş və burada 27 kitabın adı yazılmışdır. Abidə Şərq üsulu ilə səhifələnib və əsərin sonu kolofonla bitir. Bu kitab vaxtı ilə məşhur Azərbaycan alimi və katibi Əbdülqəni Nuxəvi Xalisəqarızadənin kitabxanasına məxsus olmuşdur. Cildi basma xətlərlə işlənmiş kartona keçirilmiş tünd qəhvəyi rəngli dəridir. Əsər h.1230/m.1814-cü ildə İsmayıl bin Mirzə Baba Təbrizi tərəfindən köçürülmüşdür. Əlyazmanın həcmi 166 vərəq və ölçüsü 33,5x21 sm-dir.

D-713/10690 şifrəli əlyazmada bu əsər Avropa istehsalı olan sarımtıl rəngli, filiqranlı və yarı ahərlənmiş vərəqə qara mürəkkəblə nəstəliq elementli nəsx xətti ilə köçürülüb. Vərəqlərdə D, R, A, C hərfləri qeyd olunub. Şərhdə bəzi sözlər o cümlədən, kitabların adları qırmızı mürəkkəblə yazılıb. Sətirlərin arasında və mətnin haşiyələrində müxtəlif istiqamətlərə qara mürəkkəblə yazılmış qeyd və izahlar var. Bəzi söz və ifadələrin üzərindən qırmızı mürəkkəblə xətt çəkilib. Haşiyələrdə binonimlər qara mürəkkəblə yazılıb. Şərq üsulu ilə səhifələnən əlyazma kolofonla bitir. Kitabın cildi açıq qəhvəyi rəngli kartona keçirilmiş dəridir. Üzərinə bir böyük və dörd balaca basma medalyon vurulub. Əsər İsmayıl Xan Xəlil tərəfindən h. 4 cəmadiyəlaxır 1316/m. 20 oktyabr 1898-ci il cümə günü köçürülmüşdür. Əlyazmanın həcmi 219 vərəq, ölçüsü isə 30,8x18sm-dir.

"Raudət əl-bəhiyyə fi şərh əl-ləmat əd-dəməşqiyyə" əsərinin birinci hissəsinin digər nüsxələri B-127/1745, B-3862/5487, S-2/8956, S-326/9279, S-360/9313, S-366/14103, S-478/22316, D-105/10082, D-170/10147, D-324/10301, D-339/20783, D-479/10456, D-761/10738, D-786 /10763, D-858/10835, D-863/10840, D-905/10882 şifrələrində də qorunub saxlanılır.

Əlyazmalar İnstitutunda Zeynəddin əl-Amilinin fiqhə aid olan bu əsərin ikinci cildi də qorunub saxlanılır. Onlardan D-616/10593 şifrəsi altında saxlanılan ikinci hissə Avropa istehsalı olan həm göy və həm də sarımtıl rəngli filiqranlı vərəqə qara mürəkkəblə nəstəliq elementli nəsx xətti ilə köçürülüb. Mətndə bəzi söz və ifadələrin üzərindən qara və qırmızı rəngli mürəkkəblə xətt çəkilib. Sətirlərin arasında və haşiyələrdə müxtəlif istiqamətlərə qara mürəkkəblə yazılmış qeyd və izahlar var. Əsərdə fəsillərin adları qırmızı mürəkkəblə yazılıb. Əlyazmanın birinci səhifəsində əsərin fehristi verilmişdir. Bu fehristə ikinci cildə daxil olan 24 kitabın adı qara mürəkkəblə yazılıb. Abidə Şərq üsulu ilə səhifələnib, cildi isə kartona keçirilmiş açıq qəhvəyi rəngli dəridir. Cildin kənarına basma çərçivə, ortasına isə bir böyük və iki balaca basma medalyon vurulub. Şərh Əli bin Kərbalayi Baba tərəfindən h.1240/m.1824-cü ildə köçürülüb. Həcmi 200 vərəq, 33,5x21,5 sm-dir. D-756/10733 şifrəsi altında saxlanılan bu şərh Avropa istehsalı olan sarımtıl rəngli, nazik, filiqranlı vərəqə qara mürəkkəblə narın nəsx xətti ilə köçürülüb. Mətn qırmızı mürəkkəblə çərçivəyə salınıb. Əsərdə ikinci cildə daxil olan kitabların adları qırmızı mürəkkəblə yazılıb. Həmçinin bəzi söz və ifadələrin üzərindən qırmızı mürəkkəblə xətt çəkilib. Mətnin haşiyələrində və sətirlərin arasında qara mürəkkəblə nisbətən kiçik şriftlə yazılmış qeyd və izahlar var. O cümlədən, haşiyələrdə qırmızı mürəkkəblə nisbətən iri şriftlə yazılmış binonimlər var. Şərq üsulu ilə səhifələnən əsərin sonunda müəllifin və əsərin yazılma tarixi (h.957/m.1550) qeyd olunmuş kolofon var. Bu kitab da vaxtı ilə məşhur Azərbaycan alimi və katibi Əbdülqəni Nuxəvi Xalisəqarızadənin kitabxanasına məxsus olmuşdur. Cildi kartona keçirilmiş qəhvəyi rəngli dəridir. Üzərində basma çərçivənin içində bir böyük və iki balaca basma medalyon var. Əlyazma Ərdəbil şəhərində katib İbrahim bin Hüseyn tərəfindən h.1130/m.1717-ci ildə köçürülmüşdür. Həcmi 184 vərəq, ölçüsü 30x20,5 sm-dir.

D-860/10837 şifrəli əlyazma Avropa istehsalı olan sarımtıl rəngli yarı ahərlənmiş vərəqə qara mürəkkəblə narın nəsx xətti ilə köçürülüb. Əsərdə bəzi sözlər o cümlədən, kitabların adları nisbətən iri xətlə qırmızı mürəkkəblə yazılıb. Həmçinin bəzi söz və ifadələrin

üzərindən qırmızı mürəkkəblə xətt çəkilib. Sətirlərin arasında və mətnin haşiyələrində qara mürəkkəblə yazılmış qeyd və izahlar var. Şərq üsulu ilə səhifələnən əlyazmanın birinci səhifəsində əsərin fehristi verilmişdir. Cildi kartona keçirilmiş tünd qəhvəyi rəngli dəridir. Əsərin katibi və tarixi qeyd olunmayıb. Həcmi 201 vərəq, ölçüsü isə 30x18,5 sm-dir.

Zeynəddin əl-Amilinin "Raudət əl-bəhiyyə fi şərh əl-ləmat əd-dəməşqiyyə əsərinin ikinci hissəsi qeyd olunan nüsxələrdən əlavə S-504/22804, D-400/20778, D-606/10583, D-613/10589 şifrələrində də mühafizə olunur. Bu əsərin nüsxələrinə Azərbaycanla yanaşı dünyanın müxtəlif ölkələrində, o cümlədən İran, Türkiyə, Gürcüstanda rast gəlinir [2, s. 228-230 ; 5, s. 130; 8].

## Nəticə

*Zeynəddin əl-Amili Şiə məzhəbində diqqət çəkən, varlığı ilə qürur duyulan, İslam elmlərini ən incəliklərinə qədər araşdıran, fiqh və ictihad sahəsində İslam fiqhinin təməl daşlarını meydana gətirən görkəmli alimlərdəndir. Şəhid Sani bərəkətli həyatı boyunca verdiyi dəyərli əsərlər baxımından nadir rast gəlinən şəxsiyyət olmuşdur. Onun qələmə aldığı əsərlər, o cümlədən "Raudət əl-bəhiyyə fi şərh əl-ləmat əd-dəməşqiyyə" fiqh kitabı dövründə Şiə məzhəbində təlabatına ehtiyac duyulan əsərlərdəndir. Bu səbəbdən dünyanın müxtəlif əlyazma xəzinə və kitabxanalarında rast gəlinir, Azərbaycanda isə 50-dən artıq əlyazma nüsxəsi qorunmaqdadır. Çətin həyat tərzi keçirən və faciəvi şəkildə qətlə yetirilən Şəhid Səninin yazılı elmi irsi bütün dövrlərdə aktual olmaqla bərabər öz elmi faydasını verməkdə davam edir.*

## Ədəbiyyat siyahısı:


1. Ədilov M. Azərbaycan paleoqrafiyası / M. Ədilov. – Bakı: Elm, - 2010. – 223 s.
2. Şərifli K. Əbdülqəni Əfəndi Nuxəvi Xalisəqarızadənin kitabxanasının kataloqu / K.Şərifli. – Bakı: Nurlan, -2009. – 425 s.
3. Öz M. Şehid-i Sani. Türkiye Diyanet Vakfı, İslam Ansiklopedisi: [44 ciltte] / Ankara: Türkiye Diyanet Vakfı yayınları, - c. 38. – 2010. - s. 440-441.
4. Каграманов ДЖ. Из сокровищницы рукописей Азербайджана. АНАССР. Республиканский рукописный фонд / ДЖ. Каграманов. – Баку: елм, - 1983. – 120 с.
5. Каталог арабских рукописей института рукописей им. К.С.Кекелидзе / (Коллекция L-Выпуск I) - Тбилиси: Мецниереба, - 1978. - 299с.
6. اسما ئيل باشا البغدادى. هدية العا رفين أ سماالمؤلفين و اثا رالمصنفين. استانبول -1951
7. شيخ اقا بزرك الطهرانى . الذريعة الى تصانيف الشيعة. الجزءالحاد يعشر. تهران-1959.
8. http://www.aghabozorg.ir/search.aspx
9. http://www.alulbeyt.com.tr/sehid-i-sani-r-a_h386.html
10. https://tr.wikishia.net/view/%C5%9Eehidi_Sani
11. https://az.wikipedia.org/wiki/B%C9%99la_v%C9%99_s%C9%99bir_(%C5%9E%C9%99hid_Sani)


**Rakhshanda Karimova**

**Zain al-din al-Amili and the general view of his book figh (the term for islamic jurisprudence)**

The written monuments of the medieval centuries by the well-known scholars and scribes preserved at the Institute of Manuscripts named after Mahammad Fizuli of ANAS are

very varied and different. At the Institute of Manuscripts named after M.Fuzuli of ANAS are preserved the manuscript copies of the works on different fields of theological sciences written by well-known Islamic scholars and thinkers.

***Key words:*** *Islam, Koran, figh (the term for Islamic jurisprudence), Azerbaijani manuscripts, Zain al-Din al-Amili*

**Рахшанда Керимова**

**Зейнаддин аль-Амили и обзор его книги фикха *(*мусульманская доктрина о правилах поведения, юриспруденция*)***

Письменные памятники, написанные известными учеными и переписчиками средних веков, и, которые хранятся в Институте Рукописей имени Мухаммеда Физули НАНА, очень многообразны и различны с точки зрения своей содержательности. В Институте рукописей имени М. Физули Национальной Академии Наук Азербайджана хранятся рукописные копии произведений известных ученых и мыслителей исламского мира, относительно разных сфер теологических наук

***Ключевые слова:*** *Ислам, Коран, фикх (мусульманская доктрина о правилах поведения, юриспруденция), Азербайджанская рукопись, Зейнаддин аль-Амили*

İlahiyyat üzrə fəlsəfə doktoru, dosent **Nailə Süleymanova**
tərəfindən çapa tövsiyə olunmuşdur.